**Abdulov Ə**. Unudulmaz mərd oğullar // Respublika. - 2023. - 11 oktyabr. - **№ 221**. - S. 5.

**Vətən müharibəsində böyük rəşadət və igidlik göstərərək şəhidlik zirvəsinə ucalan Vətən müharibəsi Qəhrəmanı polkovnik-leytenant Orxan Nadir oğlu Əkbərovun və Elmin Elməddin oğlu Bayramovun xatirəsi ehtiramla anıldı.**

Qəhrəman şəhidlərimizin anım mərasimində Biləsuvar Rayon İcra Hakimiyyətinin məsul əməkdaşları və rayon ictimaiyyətinin nümayəndələri şəhidlərin ata ocaqlarını ziyarət edərək, valideyinləri və yaxınları ilə görüşdülər. Qəhrəman şəhidlərimizin məzarları ziyarət olunub, ruhlarına dualar oxunub, üzərlərinə gül-çiçək dəstələri düzülərək əziz xatirələri ehtiramla yad edildi.

Mərasimdə qəhrəmanlarımızın şərəfli döyüş yolundan danışıldı. Azərbaycan xalqının qüruru, fəxri olan şəhidlərimizin xatirələrinin bundan sonra da daim əziz tutulacağını və dövlətimizin hər zaman şəhidlik zirvəsinə ucalan igidlərimizin ailələrinin yanında olacağı bildirildi.

Orxan Nadir oğlu Əkbərov 1982-ci il dekabrın 12-də Saatlı şəhərində anadan olub. 1989-1997-ci illərdə Saatlı şəhərində 3 nömrəli tam orta məktəbdə, 1997-1999-cu illərdə isə Biləsuvar şəhərində 1 nömrəli tam orta məktəbdə təhsil alıb. 2 övladı yadigar qaldı. Azərbaycan Ordusunun polkovnik-leytenantı Orxan Əkbərov Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən şiddətli döyüşlərdə vuruşub oktyabrın 6-da qəhrəmancasına şəhid olub. Biləsuvar şəhərində dəfn olunub.

Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə ölkəmizin ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirakına, hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə, şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə polkovnik-leytenant Orxan Nadir oğlu Əkbərova ölümündən sonra "Vətən Müharibəsi Qəhrəmanı" adına layiq görülmüş, "Vətən uğrunda," "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Elmin Elməddin oğlu Bayramov 21 iyul 2002-ci ildə Biləsuvar rayonunun Əsgərabad kəndində anadan olmuşdur. 2008-2019-cu illərdə Əsgərabad kənd tam orta məktəbində orta təhsil alıb. 2020-ci ilin iyul ayından Ağcabədi rayonunda yerləşən N saylı hərbi hissədə həqiqi hərbi xidmətə başlamışdır. Elmin Bayramov Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda

27 sentyabr 2020-ci ildə başlayan Vətən müharibəsində iştirak etmiş, Füzuli rayonu istiqamətində gedən döyüşlərdə düşmən hücumunun qarşısını alarkən qəhrəmancasına şəhid olmuşdur. Şəhid Elmin Bayramov doğulduğu Biləsuvar rayonu Əsgərabad kəndində dəfn olunmuşdur.

Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə ölkəmizin ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Elmin Elməddin oğlu Bayramov ölümündən sonra 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni və "Vətən uğrunda", "Cəsur döyüşçü", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilib.